

Azərbaycan Turizm və Menecment Universiteti

BƏRPA OLUNAN, AKADEMİK MƏZUNİYYƏTDƏN QAYIDAN, TƏHSİLALMA FORMASINI DƏYİŞƏN, KÖÇÜRÜLƏN VƏ BAKALAVRİAT SƏVİYYƏSİNDƏ İKİLİ DİPLOM VƏ MÜBADİLƏ PROQRAMLARINDA İŞTİRAK EDƏN TƏLƏBƏLƏRİN KREDİTLƏRİNİN TANINMASI, KREDİT FƏRQLƏRİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

QAYDALARI

ATMU-TMŞ-Q(BAMİDMPKTKF)-01

Dəyişikliklər haqqında məlumat			
Tarix	**Versiya**	**Tərtib etdi**	**Dəyişikliyin izahı**
14.02.2024	01	Həcər Eldarova Səmayə Abbasbəyli İranə Axundova	

BAKI - 2024

MÜNDƏRİCAT

I. Ümumi müddəalar	**4**
II. Təşkilati məsələlər	**5**
III. Yekun müddəalar	**5**
Əlavə 1. Fənlərin uyğunlaşdırma cədvəli	**6**
Əlavə 2. Fənlərin uyğunlaşdırma cədvəli	**7**
Əlavə 3. ATMU-da qiymətləndirmə siyasəti	**8**

TƏSDİQ EDİRƏM:
AZƏRBAYCAN TURİZM VƏ MENECMENT
UNİVERSİTETİNİN REKTORU
_____ MƏDƏTOV İ.İ.

BƏRPA OLUNAN, AKADEMİK MƏZUNİYYƏTDƏN QAYIDAN, TƏHSİLALMA FORMASINI DƏYİŞƏN, KÖÇÜRÜLƏN VƏ BAKALAVRİAT SƏVİYYƏSİNDƏ İKİLİ DİPLOM VƏ MÜBADİLƏ PROQRAMLARINDA İŞTİRAK EDƏN TƏLƏBƏLƏRİN KREDİTLƏRİNİN TANINMASI, KREDİT FƏRQLƏRİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ QAYDALARI

I. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na və Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində təhsilalanların köçürülməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət götürülməsinə dair Qaydalar"ında nəzərdə tutulan müddəalara və qiymətləndirmə siyasətinə (Əlavə 3) əsasən tənzimlənir;

1.2. Bu qaydalar Azərbaycan Turizm və Menecment Universitetinin (bundan sonra ATMU) Elmi Şurasında təsdiqlənir, ehtiyac olduqda müvafiq şuranın qərarı ilə dəyişdirilə bilər.

II. TƏŞKİLATİ MƏSƏLƏLƏR

2.1. Bərpa olunan, akademik məzuniyyətdən qayıdan, təhsilalma formasını dəyişən, köçürülən və ikili diplom və mübadilə proqramlarında iştirak edən tələbələrin kreditlərinin tanınması, kredit fərqlərinin müəyyənləşdirilməsinin fənn uyğunlaşdırma cədvəlləri ATMU-ya qəbul olunan tələbələrin qeydiyyatının aparıldığı tarixdən 5 iş günü müddətində akademik məsləhətçilər (tyutor) tərəfindən hazırlanır və müvafiq kafedralara təqdim edilir;

2.2. Fənlər üzrə kompetensiyaların uyğun olub-olmaması barədə kafedra iclaslarından alınan çıxarışlar həmin kafedranın təhkim olunduğu fakültənin Tədris-metodiki şurasına təqdim edilir;

2.3. Tədris-metodiki şurası tərəfindən kompetensiyaları ixtisasın təhsil proqramındakı fənlərlə uyğun olması haqqında rəy almış fənlərin siyahısı təsdiq üçün fakültə Elmi şurasına təqdim olunur;

2.4. Uyğunlaşdırma cədvəli təsdiq olunduqdan sonra həmin tələbələrin Fərdi tədris planı (Forma 4) kreditləri tanınmış fənlər nəzərə alınmaqla fakültə tyutoru tərəfindən hazırlanır;

2.5. İkili Diplom Proqramları çərçivəsində kreditin tanınması fənlərin kompetensiyaları nəzərə alınaraq öncədən razılaşdırılmış ortaq tədris planına uyğun hazırlanır;

2.6. Tələbənin İkili Diplom Proqramında iştirakı zamanı nəzərdə tutulan ortaq tədris planına uyğun olaraq tələbənin fərdi tədris planı hazırlanır;

2.7. Mübadilə proqramları çərçivəsində tələbənin müvafiq semestr üzrə keçəcəyi fənlərin siyahısı öncədən müəyyənləşdirilir;

2.8. Müvafiq fakültə tərəfindən qarşılıqlı əvəzlənmiş və ATMU-da tanınan fənlər müqaviləyə əlavə olunaraq tərəfdaş universitetə göndərilir;

2.9. Tələbə mübadilə proqramından qayıdandan sonra tərəfdaş ATM-də əldə etdiyi kreditlər ATMU tərəfindən tanınır.

III. YEKUN MÜDDƏALAR

3.1. Uyğunlaşdırma cədvəlləri (Əlavə 1 və Əlavə 2) 2 nüsxədə hazırlanır, bir nüsxəsi fakültədə qalmaqla, digər nüsxəsi Tədris-metodiki şöbəyə təqdim edilir;

3.2. Eyni təhsil proqramı və ixtisası üzrə növbəti mərhələlərdə bərpa olunan, akademik məzuniyyətdən qayıdan, təhsilalma formasını dəyişən, köçürülən və bakalavriat səviyyəsində ikili diplom və mübadilə proqramlarında iştirak edən tələbələrin bu qaydalar üzrə uyğunlaşması aparılan fənlər müvafiq proseduru keçmədən birbaşa uyğunlaşdırma cədvəlində qeyd edilir.

Hazırki Qaydalar 14 fevral 2024 cü il tarixli Elmi Şura iclasında 01 №-li protokolla təsdiq olunmuşdur.

Əlavə 2.

BƏRPA OLUNAN, AKADEMİK MƏZUNİYYƏTDƏN QAYIDAN, TƏHSİLALMA FORMASINI DƏYİŞƏN TƏLƏBƏLƏRİN KREDİTLƏRİNİN TANINMASI/ KREDİT FƏRQLƏRİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ ÜÇÜN FƏNLƏRİN UYĞUNLAŞDIRMA CƏDVƏLİ

____/____-c_ tədris ili

_____

(tələbənin S.A.A.)

Hazırki təhsil məlumatları		Əvvəlki təhsil məlumatları	
Fakültə:		Universitet:	
İxtisas:		İxtisas:	

№	ATMU-da əvvəlki təhsilində tədris olunan fənlər				ATMU-da əvəzlənən fənlər				
	Fənnin adı	Kredit	Saat	Qiymət	Fənnin adı	Kod	Kredit	Saat	Semestr
1.									
2.									
3.									
4.									
5.									

Fakültə dekanının imzası: _____**(S.A.A)**

Tyutorun (akademik məsləhətçi) imzası: _____**(S.A.A)**

Əlavə 1.

KÖÇÜRÜLƏN VƏ BAKALAVRİAT SƏVİYYƏSİNDƏ MÜBADİLƏ/İKİLİ DİPLOM PROQRAMLARINDA İŞTİRAK EDƏN TƏLƏBƏLƏRİN KREDİTLƏRİNİN TANINMASI ÜÇÜN FƏNLƏRİN UYĞUNLAŞDIRMA CƏDVƏLİ

____/____-c_ tədris ili

_____

(tələbənin S.A.A.)

Tələbənin təhsil məlumatları	
Fakültə:	
İxtisas:	

№	Mübadilə/İkili diplom proqramlarında tədris olunan fənlər				ATMU-da əvəzlənən fənlər				
	Fənnin adı	Kredit	Saat	Qiymət	Fənnin adı	Kod	Kredit	Saat	Semestr
1.									
2.									
3.									
4.									
5.									

Fakültə dekanının imzası: **_____(S.A.A)**

Tyutorun (akademik məsləhətçi) imzası: **_____(S.A.A)**